# Qubadlının azad edilməsi düşmənə vurulan sarsıdıcı zərbə idi



**1993-cü il avqustun 31-də təcavüzkar Ermənistanın ordu hissələrinin Qubadlı rayonunu işğal etməsi ilə Qubadlı şəhəri və 94 kənd düşmən qüvvələrinin nəzarətinə keçmiş, rayonun 30 minə yaxın əhalisi öz Vətənindən, yurd-yuvasından didərgin düşmüşdü. Azərbaycan Ordusunun ötən il sentyabrın 27-də irimiqyaslı əks-hücum kimi başladığı Vətən müharibəsinin uğurlu döyüş əməliyyatları ilə oktyabrın 25-də Qubadlı şəhəri və ətraf kəndlər 27 ildən sonra erməni işğalından azad edildi.**

Bununla da ölkəmizin ərazi bütövlüyünün bərpa olunması uğrunda savaşda daha bir önəmli qələbə qazanıldı. Bu rəşadəti şərəfləndirmək və tarixiləşdirmək üçün 2020-ci il noyabrın 26-da “Qubadlının azad olunmasına görə” medalı ilə təsis edildi. Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş 15 min 189 hərbi qulluqçu Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə “Qubadlının azad olunmasına görə” medalı ilə təltif olundu.

Qarabağ yaylasının cənub-şərqində yerləşən, XVIII əsrdən Qarabağ xanlığının inzibati ərazisinə daxil olmuş Qubadlı sovet dövründə yaradılmış ayrıca rayon olmaqla, Azərbaycanın Zəngilan, Cəbrayıl, Laçın, Xocavənd və Ermənistanın Gorus, Qafan rayonları ilə həmsərhəddir. Rayonun bir hissəsi dağətəyi olsa da, əsas ərazisi dağlıqdır. Dağlıq yerlər meşəliklərə bürünüb, buradakı şəfalı bulaqlar can dərmanıdır. Kəndlərin əksər hissəsi gursulu Həkəri və Bərgüşad çayları ətrafında yerləşir.

Qubadlı işğala qədər kənd təsərrüfatı rayonu kimi formalaşmışdı. Burada taxıl, üzüm, tütün, bostan məhsulları istehsal edilirdi, əhali heyvandarlıqla məşğul olurdu. Son illərdə bəzi sənaye sahələri də yaradılmışdı. Qubadlıda məşhur mərmər karxanası da var idi. Rayon elektrikləşdirilmiş, qazlaşdırılmış, teleradio yayımı təmin edilmişdi.

İşğaldan qabaqkı illərdə qəsəbə və kəndlərdə bir çox zəruri inzibati və sosial-mədəni obyekt, minlərlə fərdi ev, xeyli yaşayış binası tikilmiş, yeni körpülər salınmış, yollar çəkilmişdi. İşğal nəticəsində bütün bunlar–7 min 278 fərdi yaşayış evi, 64 inzibati bina, 148 sosial və 161 mədəniyyət obyekti, 7 məscid, 16 körpü dağıdılmış, ərazi tamamilə yararsız vəziyyətə salınmışdır.

İşğalçı-vandallar 1080 kənd təsərrüfatı obyektini, 650 kilometr avtomobil yolunu, 2 su anbarını, 150 kilometr magistral su, 4 min 830 kilometr elektrik, 165 kilometr magistral qaz boru xətlərini, 9 tikinti, 4 yol idarəsini, 18 dəyirmanı, 4 su nasos stansiyasını, 120 elektrik yarımstansiyası və transformatoru qarət etmiş, dağıtmış, yararsız hala salmışdır.

Rayonun 27 il işğal altında qalması, amansızlıqla xarabalığa döndərilməsi Azərbaycan tarixinə bir çox görkəmli şəxsiyyətlər vermiş Qubadlının doğma yurduna həsrət qalmış indiki nəsillərinin qəlbinə dağ çəkmiş, hamı düşməndən intiqam almaq məqamını həsrətlə gözləmişdi. Qarabağ savaşı başlanan gündən Qaçaq Nəbi kimi xalq qəhrəmanı, Əliyar Əliyev kimi Milli Qəhrəmanlar yetirmiş Qubadlının hünər və qeyrət yolunu II Qarabağ savaşında Şükür Həmidov kimi igid oğulları şərəflə davam etdirdilər.

Xatırladım ki, polkovnik Həmidov 2016-cı ilin aprelində erməni işğalçıları ilə döyüşdə göstərdiyi qəhrəmanlığa, Lələtəpə yüksəkliyinin düşməndən azad edilməsindəki böyük şücaətinə görə Milli Qəhrəman adına layiq görülmüşdür. Qəhrəman həmyerlimiz Vətən müharibəsində qazandığımız misilsiz zəfərə də layiqli töhfələr verdi və Qubadlı uğrunda döyüşlərdə igidliklə həlak oldu.

Müharibənin gedişində ölkəmizdə xalq–dövlət–ordu birliyi daha da möhkəmləndi. Azərbaycan Respublikasının bütün vətəndaşları etnik, sosial, dini baxımdan bütövlük nümayiş etdirdi, ön və arxa cəbhədə mükəmməl birlik yarandı. Arxa cəbhədə uşaqdan-böyüyə hamı vuruşan orduya kütləvi yardım kampaniyalarına qoşuldu, qanvermə aksiyalarında fəal iştirak etdi, döyüşçülərimizə mənəvi dəstək oldular. Şəhər və kəndlərimizin uzun sürən işğaldan xilas edilməsinin davamında düşmənin tör-töküntü qüvvələrinin istehkama çevirmək istədiyi Qubadlıdan qovulub-çıxardılması təcavüzkara vurulan sarsıdıcı zərbə idi.

Bütün bunlara görə milli tariximizin bu ən böyük qələbəsini bizə yaşadan müdrik və qətiyyətli Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevə borcluyuq. Vətən uğrunda canını qurban vermiş şəhidlərimizin ruhu qarşısında baş əyirik. On illərlə əzablı, məşəqqətli məcburi köçkünlük həyatı yaşayan qubadlılılar da tezliklə öz doğma yurd yerlərinə qayıdacaqlar. Artıq namərd düşmənin başdan-başa xaraba qoyduğu şəhər və kəndlərimiz dirçəldilir, yurd yerlərimizdə yandırılan işıqlar sürətlə çoxalır. Çox keçməyəcək ki, işğaldan azad olunmuş ərazilərimiz yenidən qaynar həyatına dönəcək. Qarabağ Azərbaycandır! Yaşasın müstəqil, azad Azərbaycan!

***Fizuli HƏSƏNOV,***
***Milli Qəhrəmanları Tanıtma İctimai Birliyi Binəqədi rayon nümayəndəliyinin sədri, Qarabağ qazisi***

Xalq qəzeti 2021.- 29 oktyabr.- S.8.